Bülleten No: 13 / yanvar 2014

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi
Məlumat Hesablama Mərkəzi

## Elektron Hökumət Portalı
your gateway to all public services

www.e-gov.az

YANVAR 2014

# Elektron Hökumət Bülleteni




## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



ISO 9001 SGS SYSTEM CERTIFICATION
UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# Azərbaycanda dövlət elektron xidmət növlərinin siyahısı genişləndirilib




**Nazirlər Kabineti 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"na dəyişikliklər edib.**

Nazirlər Kabinetinin qərarına əsasən, dövlət elektron xidmətlərinin siyahısına yeni hissə (37.1) əlavə edilib. Həmin hissəyə əsasən "ASAN xidmət" 3 elektron xidmət növü göstərəcək:

- İnformasiya sistemləri, informasiya ehtiyatları və elektron xidmətlərlə bağlı dövlət orqanları tərəfindən təqdim olunan layihələrə (təkliflərə) rəy verilməsi üçün müraciətin və sənədlərin qəbulu;
- "ASAN xidmət" mərkəzlərində göstərilən xidmətlərdən istifadə məqsədi ilə onlayn növbənin tutulması;
- "ASAN xidmət" mərkəzlərində göstərilən xidmətin nəticəsində təqdim edilməli olan hazır sənədlə bağlı məlumatın verilməsi.

**"Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

# Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 349 saylı qərarı



Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1072, № 12, maddə 1247; 2012, № 1, maddə 40, № 3, maddə 256, № 10, maddə 1016, № 11, maddə 1207; 2013, № 6, maddələr 745, 757, № 7, maddə 868, № 8, maddələr 1005, 1018) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı"nın 22.9-cu və 22.10-cu bəndləri aşağıdakı redaksiyada verilsin:

| | |
|---|---|
| 22.9. | Gömrük brokeri və gömrük daşıyıcısı fəaliyyətinə lisenziyanın verilməsi, onun fəaliyyətinin dayandırılması və ləğv edilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| 22.10. | Gömrük anbarlarının və müvəqqəti saxlanc anbarlarının təsis edilməsinə lisenziyanın verilməsi, onun fəaliyyətinin dayandırılması və ləğv edilməsi üçün müraciətin və sənədlərin qəbulu |

# Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin daha bir elektron xidməti istifadəyə verilib

“Vətəndaşlar üçün elektron imza sertifikatları sifarişi” xidməti “Elektron hökumət” portalına inteqrasiya edilib. Bu xidmət elektron imza sertifikatının verilməsi üçün müraciətin elektron formada qəbul edilməsi və nəticəsi barədə istifadəçiyə məlumat verilməsini əhatə edir.

Xidmətdən yararlanmaq istəyən istifadəçi “Elektron hökumət” portalına daxil olaraq müəyyənləşdirilmiş avtorizasiya prosesini keçir və ekranda açılan xüsusi ərizə formasına şəxsi məlumatları və əlaqə vasitələrini daxil edir. Tələb olunan məlumatların daxil edilməsi başa çatdıqdan sonra “Təhlükəsizlik kodunu daxil edin” sahəsinə ekranda görünən kodu qeyd edir.

Sifariş icra edildikdən sonra istifadəçi ilə telefon və ya elektron poçt vasitəsilə əlaqə saxlanılır və elektron imza sertifikatını almaq üçün Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Məlumat Hesablama Mərkəzinin Qeydiyyat Mərkəzinə dəvət olunur.

www.e-gov.az

# Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi elektron xidmətlərin hazırlanması zamanı "usability"nin nəzərə alınması istiqamətində müvafiq işlərin görülməsinə başlayacaq

Rusiyada interaktiv sistemlərin insana yönəldilmiş planlaşdırması üzərində qurulan "Usability" ilə bağlı dövlət standartının tətbiqinə başlanılacaq. Sözügedən təcrübə hazırda dünyada geniş yayılıb. Azərbaycanda isə bu standart hələlik tətbiq edilmir. Məsələnin aktuallığını və "Usability"nin əhəmiyyətini nəzərə alan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi bu istiqamətdə müvafiq işlərin görülməsini planlaşdırır. Bəs bu standart özündə nəyi ehtiva edir?




**"USABILITY"**

**"Usability"** - istifadəçinin işləmə prosesini asanlaşdıran və onun iş səriştəsinin artırılması məqsədilə hazırlanmış məhsul (proqram, sayt, xidmət sahəsi və s.) deməkdir. Bunu dörd əsas tələb üzərində izah etmək olar.

**"Usability" - istifadəçi necə və hansı məqsədlə proqramdan istifadə edir sualını düşünmək deməkdir.** Müvəffəqiyyətli proqram təminatının (sayt, xidmət və s) hədəfi istifadəçinin məqsədi üzərində mərkəzləşir. İstifadəyə yararlı proqram təminatı (sayt, xidmət və s) yaratmağın birinci mərhələsi istifadəçinin məqsədini onun iş mühitindən, tapşırıq və iş prosesindən müəyyən etmək və proqramı (sayt, xidmət və s) bu tələblərə uyğun şəkildə dizayn etməkdir.

**"Usability" - məlumatın təhlilidir.** O, sadəcə, dizaynerin təcrübəsinə yox, həm də istifadəçinin tələbləri üzrə toplanılan məlumatlara əsaslanır. Adi proqram təminatından fərqli olaraq, **"Usability"** real şəxsin proqramdan istifadəsinə istinad edir, eləcə də proqramı inkişaf etdirən amillərdən yararlanır.

**"Usability" – sadəcə, "istifadəni asanlaşdırmaq" anlayışını ifadə etmir.**

**"Usability"**nin çoxşaxəli xüsusiyyətləri aşağıdakılardır:

*Səmərəlilik*
*Təsirlilik*
*Səhvə dözümlülük (error tolerant)*
*Cəlbedicilik*
*Öyrənimlilik (asanlıqla öyrənilən)*

**"Usability" - istifadəçi yönümlü dizayn deməkdir.** İnterfeys istifadəçi yönümlü olduqda istifadəçinin hədəfləri, onun məntiqi modelləri, tapşırıqları və tələbləri təmin edilmiş hesab olunur. Təhlillər, dizayn və istifadəçinin nöqteyi-nəzərindən başlayaraq bütün dəyərləndirmələr hamısı bir yerdə istifadəyə yararlı proqram (sayt, xidmət və s) yaradır.

**"Usability"** – dizaynerin istifadəçi ilə bağlı təcrübəsini artırır.

**İSTİFADƏÇİ TƏCRÜBƏSİNİN ZƏRURİ CƏHƏTLƏRİ**

**İstifadəçi Təcrübəsi** istifadəçinin ehtiyacları, dəyərləri, bacarıqları, eləcə də bacarmadıqlarını əhatə edən istifadəçi haqqında ətraflı məlumatlar üzərində mərkəzləşmişdir. Həmçinin layihənin qrup şəklində idarəsinin məqsəd və vəzifələri də istifadəçi təcrübəsinə aiddir. İstifadəçi təcrübəsinin ən yaxşı cəhəti istifadəçinin təqdim edilən məhsul ilə (proqram, sayt, hər hansı bir xidmət sahəsi və s) qarşılıqlı əlaqəsinin və istifadəçi tərəfindən onun hərtərəfli qavranılmasının keyfiyyətini inkişaf etdirməyi təmin etməkdir.

**İSTİFADƏÇİ TƏCRÜBƏSİNƏ TƏSİR EDƏN AMİLLƏR**

İstifadəçi təcrübəsinin əsasını təqdim edilən məhsulun (sayt, xidmət və s) istifadəçi tərəfindən ətraflı dərkinin təmini təşkil edir. Peter Morville bunu belə izah edir (şəkil 1). O qeyd edir ki, məna kəsb edən və yararlı **İstifadəçi Təcrübəsi (User Experience)** üçün məlumat aşağıda qeyd edilən tələblərə uyğun olmalıdır:

**Faydalı** – məlumat öz ilkin formasında olmalı və ehtiyacı ödəməlidir.

**Münasib** – saytın istifadəsi asan olmalıdır.

**Arzu olunan** - Təəssürat oyatmaq və diqqət cəlb etmək üçün şəkil, fərdi məlumatlar, marka kimi dizayn elementlərindən istifadə edilməlidir.

**Axtarışa yararlı** – Məlumat sayt daxilində və saytdan kənar axtarışa yararlı olmalıdır.

**Əlçatan** – Məlumat istənilən şəxs tərəfindən əldə ediləcək formatda olmalıdır

**Etibar edilən** - İstifadəçi təqdim edilən məlumata inanmalı və etibar etməlidir.

**"Usability" sınağı** istifadəçi ilə məhsulun (sayt, xidmət və s) və ya xidmətin keyfiyyətinin və tələblərə uyğunluğunun yoxlanılmasıdır. Adətən, sınaq ərzində iştirakçılar hər hansı tapşırığı tamamlamağa çalışır, müşahidəçilər isə nəzarət edir, dinləyir və qeydlər edir. Bu sınağın məqsədi məhsulun yararlılığında hər hansı problem varsa, müəyyən etmək, keyfiyyət və kəmiyyət üzrə məlumatlar toplamaq və məhsulun iştirakçıya uyğunluğunu təyin etməkdir. Səmərəli **"Usability" sınağı** üçün əsaslı sınaq planı hazırlamaq, iştirakçı cəlb etmək eləcə də əldə edilən nəticələri təhlil etmək və nəticə üzrə hesabat hazırlamaq lazımdır.

**"USABILITY" SINAĞININ ÜSTÜNLÜKLƏRİ**

Bu sınaq dizayn və inkişaf etdirmə komandalarına kodlaşdırmadan əvvəl mövcud olan problemləri müəyyən etməyə şərait yaradır. İlkin problemlər müəyyən edilir və aradan qaldırılır. Sınaq müddətində:

*İştirakçının tapşırığı müvəffəqiyyətlə tamamlayıb və ya tamamlamaması*

*İştirakçının tapşırığı nə qədər vaxta tamamlaması*

*İştirakçının məhsuldan (proqram, sayt, xidmət sahəsi və s) məmnunluğu*

*İştirakçı işini və məmnunluğunu artıracaq, tələb olunan dəyişiklikləri müəyyən edilir.*

*Alınan nəticənin məqsədəuyğunluğu təhlil edilir.*

**"Usability" - Məhsulun (proqram, sayt, xidmət sahəsi və s) əlverişli istifadəyə uyğunluğunun qiymətləndirilməsidir.**

"Usability" - təkcə məhsulun, sistemin və ya istifadəçi interfeysinin birölçülü xüsusiyyəti deyil, aşağıda qeyd edilən amillərin kombinasiyasıdır:

**İntuitiv dizayn** - praktiki olaraq saytın strukturunu və sayt üzrə naviqasiyanı anlamaq üçün səy tələb etməyən dizayn

**Rahat öyrənilən** - istifadəçi interfeysi ilə yenicə tanış olan istifadəçinin tapşırığı icra etmə sürəti

**İstifadənin səmərəsi** - təcrübəli istifadəçinin tapşırığı icraetmə sürəti

**Yadda saxlanılmalı** - istifadəçinin növbəti istifadəsi üçün proseslərin yadda saxlanılma rahatlığı

**Xəta tezliyi və ağırlığı** - sistemdən istifadə edərkən istifadəçinin səhv etmə tezliyi (yəni tez-tez səhv edərsə) və istifadəçi səhvlərinin ağırlığı, eləcə də istifadəçinin bu səhvləri aradan qaldırma metodları

**Subyektiv məmnunluq** - İstifadəçinin sistemdən məmnunluğu.

# Nazir: "Azərbaycanda 1 milyon 250 min Facebook istifadəçisi var"

**Azərbaycanda aktiv şəkildə internetdən istifadə olunur.**

Bu gün ölkədə Facebook sosial şəbəkəsində qeydiyyatdan keçənlərin sayı 1 milyon 250 mini ötüb.

Bu barədə Rabitə və İnformasiya Texnologiyaları Naziri Əli Abbasov "Azərbaycanda internet: dünəni, bugünü və sabahı" adlı konfransda bildirib.

Nazir qeyd edib ki, bu gün Azərbaycan əhalisinin 70%-i internet istifadəçisidir və onlardan 50%-i geniş zolaqlı internetə qoşulub. Ə.Abbasovun sözlərinə görə, bu gün internet istifadəçilərinin 10%-i elektron xidmətlərdən istifadə edir, 40% xidmətlər isə elektronlaşdırılıb.

O həmçinin əlavə edib ki, 2020-ci ilə kimi isə elektron xidmətlərdən əhalinin 100% əhatə olunması və xidmətlərin 80%-nin elektronlaşdırılması planlaşdırılır:

"Azərbaycanda internetin 2020-ci ilə kimi bütün evləri əhatə etməsi istiqamətində mühüm işlər görülür. İnternetin imkanlarını genişləndirmək üçün ona lazım olan xidmətlər verilməlidir".

Nazir, eyni zamanda genişzolaqlı internet xidmətinin inkişafı üçün həyata keçirilən layihəyə də toxunaraq bildirib ki, gələn ildən Dövlət Neft Fondu və Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən "Azərbaycan Respublikasının bütün yaşayış məntəqələrinə çıxış imkanı yaradan yüksək sürətli fiber-optik şəbəkənin qurulması" layihəsi həyata keçirilməyə başlanacaq.

Onun sözlərinə görə, bu layihə çərçivəsində 3 ildən sonra bütün şəhər və kəndlərdə 100 meqabit saniyə internetə çıxış əldə edəcək insanların sıxlığı 85%-ə çatdırılacaq.

# "Elektron hökumət" portalının rəsmi Facebook səhifəsini bəyənən 100 000-ci istifadəçi




**"Elektron hökumət" portalının rəsmi Facebook səhifəsinin əməkdaşları rəmzi olaraq 100 000-ci istifadəçini müəyyən edib. Sözügedən səhifəni bəyənən 100 000-ci istifadəçi Rəcəb Feyzullayevdir.**

Rəcəb Feyzullayev 100 000-ci istifadəçi seçilməsi münasibətilə "Elektron hökumət" portalının operatoru olan RİTN-nin Məlumat Hesablama Mərkəzinə dəvət edilib. 29 yaşlı Rəcəb Feyzullayev Azərbaycan Dillər Universitetinin Avropaşünaslıq və Beynəlxalq Münasibətlər fakültəsinin həm bakalavr, həm də magistr dərəcəli məzunudur. Hazırda isə paytaxtdakı avtomobil mərkəzlərinin birində satış meneceri kimi fəaliyyət göstərir. Rəcəb Feyzullayev bildirib ki, o, aktiv internet istifadəçisidir. Səhifənin 100 000-ci istifadəçisi olan Rəcəb Feyzullayev "Elektron hökumət" portalından hədiyyə olaraq kitabça, e-imza kartı və kart oxuyucu, "Azdatacom" internet provoyderindən 1 illik pulsuz internet paketi və Samsung Planşetlə mükafatlandırılıb.

Daha sonra Rəcəb Feyzullayev fikirlərini internet istifadəçiləri ilə bölüşüb: "Bir neçə il bundan qabaq ABŞ-da idim. Orada insanların elektron xidmətlərdən istifadəsini görəndə, fikirləşirdim ki, görəsən Azərbaycanda də belə bir gün gələcəkmi ki, insanlar növbələrdə günlərlə əziyyət çəkməsinlər, hər şey rahat və operativ şəkildə online yolla həll edilsin. Nəhayət ki, bu imkan bizim vətənimizdə də yaradıldı. Son bir neçə aydır ki, Azərbaycanda dövlət qurumları tərəfindən "Elektron hökumət" portalınında təqdim olunan elektron xidmətlərdən böyük məmnuniyyətlə istifadə edirəm. Yalnız bunuda qeyd etmək istəyirəm ki, bir çox xidmətlər var ki, onları da Portalda görmək istərdim. "Elektron hökumət" portalının bütün əməkdaşlarına uğurlar arzu edirəm və bu cür sürpriz mükafatlandırma üçün təşəkkürümü bildirirəm".

www.e-gov.az

# "Onlayn media" müsabiqəsi başa çatdı: Nəticələr

**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Nar Mobile və Azərbaycan İnternet Forumunun təşəbbüsü ilə elektron hökumət quruculuğundan, informasiya cəmiyyətindən, ümumiyyyətlə İKT -dən yazan jurnalistlər və bloqçular üçün nəzərdə tutulan "Onlayn Media" müsabiqəsi başa çatdı.**

Tədbirin açılışında AİF prezidenti Osman Gündüz layihə haqqında məlumat verərək, qeyd etdi ki, "Onlayn Media" müsabiqəsi 15 sentyabrdan 01 dekabr tarixədək davam edib. Sevindirici haldır ki, ildən- ilə müsabiqədə iştirak edənlərin sayı artır, keçən il 6 nəfər iştirak etdiyi halda, bu il 30 jurnalist və 70 mikrobloqçu iştirak edib."

Yazı müsabiqəsində **1-ci yeri Rühiyyə Hüseynova** (Aznews.az), **2-ci yeri Fərman Nəbiyev** (Mingəçevir işıqları), **3-cü yeri** isə 3 nəfər - **Babək Cahandarov** (gun.az), **Günay Musayeva** (musavat.com) və **Aynurə Əhmədova** (ayna.az) qazanıblar.

Yazılar üzrə həvəsləndirici yerləri **Elşad Paşasoy** (musavat.com), **Fərəh Sabirqızı** (modern.az), **Bəkir Nərimanoğlu** ( mediaforum.az), **Mustafazadə Mircavad** (femida.az), **Elxan Salahov** (hafta-ichi.az), **Mirvari Nəzərova** (qaynarinfo.az), **Aygün Cəfərli** (kaspi.az), **Nüsrət Zeynalov** (gazete.az) və bloq yazarı , yeni media üzrə pedaqoq **Səbinə İzzətli** qazanıblar.

Twitter sosial şəbəkəsində # ehokumət həştəqi üzrə keçirilən yarışmada **1-ci yeri Ülkər Eldarqızı, 2-ci yeri Ramin İlyasov** və **3-cü yeri Kamran Novruzov** qazanıb.

#etehsil həştəqi üzrə sosial mediada keçirilən yarışmada **1-ci yeri Jalə Səmədova, 2-ci yeri Ülkər Eldarqızı** və **3-cü yeri Rəşad Mehdizadə** tutub.

Bütün qaliblərə və fərqlənənlərə qiymətli hədiyyələr və diplomlar təqdim edilib.

Təqdimat mərasimində iştirak edən Məlumat Hesablama




Mərkəzinin nümayəndəsinin sözlərinə görə, "belə müsabiqələrin və təlimlərin keçirilməsi çox önəmlidir. Elektron hökumət quruculuğu haqqında vətəndaş cəmiyyətinə məlumatların çatdırılmasında KİV nümayəndələrinin rolu daha böyükdür. Əslində biz bu cür müsabiqəni "İKT ili" çərçivəsində təxminən 2 ay bundan qabaq Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən təşkil etmişdik. Sevindirici haldır ki, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən təşkil edilmiş "Elektron hökumət"lə bağlı ən yaxşı analitik məqalə müsabiqəsində qalib olmuş Rühiyyə Hüseynova (Aznews.az) , Aynurə Əhmədova (ayna.az) və Ramin İlyasov, məhz "Onlayn media" müsabiqəsində də həmin uğurlarını təkrarlaya biliblər. Bu bir daha onu sübut edir ki, "Elektron hökumət"lə bağlı ən yaxşı analitik məqalə müsabiqəsi tam şəffaf şəraitdə keçirilmişdir. Bunun məntiqi davamı olaraq həmin qaliblər "Onlayn media" müsabiqəsində də qaliblərin siyahısına öz adlarını yazdırmağı bacardılar. Bir məsələni də vurğulamaq istərdim ki, sözügedən qalibləri həm də "Elektron hökumət" məktəbinin ilk məzunları hesab etmək olar və mən bütün qalibləri təbrik edirəm."

# "Azərbaycanda elektron hökumət üçün təlim mərkəzinin yaradılması" layihəsi üzrə işlər davam edir

"Azərbaycanda elektron hökumət üçün təlim mərkəzinin yaradılması" layihəsi üzrə işlər davam edir. Hazırda layihə çərçivəsində Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində (RİTN) koreyalı və yerli mütəxəssislərdən ibarət İşçi Qrupun görüşü keçirilir. Cari həftənin sonuna qədər davam edəcək görüşdə məqsəd qurulacaq təlim mərkəzləri ilə bağlı qarşıya çıxan məsələlərin hərtərəfli müzakirəsidir.

Qeyd edək ki, "Azərbaycanda elektron hökumət üçün təlim mərkəzinin yaradılması" layihəsi üzrə "Koreya Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında Qrant razılaşması" Nazirlər Kabinetinin sərəncamına əsasən, 15.05.2013-cü il tarixindən qüvvəyə minib.

Layihə çərçivəsində Bakı şəhərində və Gəncə, Naxçıvan, Sumqayıt, Mingəçevir, Bərdə, Lənkəran, Qazax, Zaqatala, İmişli, Qəbələ, Göyçay, Şirvan, Şamaxı, Quba, Şəki daxil olmaqla on beş bölgədə təlim mərkəzlərinin yaradılması, mərkəzlərdə koreyalı mütəxəssislər tərəfindən xüsusi təhsil informasiya sistemi quraşdırılması və zəruri avadanlıqlarla təmin olunması nəzərdə tutulur.

Hazırda Bakı şəhərində Təlim mərkəzi üçün 1 mühazirə, 2 kompüter sinfi və 1 multimedia otağından ibarət yer ayrılıb və Gəncə, Sumqayıt, Mingəçevir, Bərdə, Lənkəran, Qazax, Zaqatala, İmişli, Qəbələ, Göyçay, Şirvan, Şamaxı, Quba, Şəkidəki 14 telekommunikasiya qovşağının inzibati binasında mərkəz üçün ayrılmış otaqlar təmir edilərək istifadəyə hazır vəziyyətə gətirilib.

Dövlət qulluqçuları bu mərkəzlərdə bilavasitə təlim kurslarında iştirak edə biləcək, eyni zamanda mərkəzin distant təhsil xidmətlərindən yararlanacaqlar.

Layihə çərçivəsində təlim mərkəzinin fəaliyyətinin təşkili, elektron təlim materiallarının hazırlanması üzrə təcrübə əldə etmək üçün yerli mütəxəssislər Koreyada təlim kursları keçəcəklər. Azərbaycanda "elektron hökumət" üçün təlim mərkəzinin yaradılması dövlət qulluqçularına İKT-nin tətbiqi sahəsində yeni praktik bilik və bacarıqların əldə edilməsinə imkan yaradacaq.

Mərkəz dövlət idarəçiliyində və respublikanın ictimai həyatının digər sahələrində e-hökumət ideyalarının tətbiqinə, informasiya cəmiyyətinin inkişafına, elektron biliklərin ümumi səviyyəsinin yüksəldilməsinə, elektron xidmətlərin artmasına xidmət edəcək.

# "Elektron sosial xidmətlər"

**6 dekabr 2013-cü ildə "Məhdud Sağlamlıq və İnkişaf mərkəzi" İctimai Birliyi "Elektron sosial xidmətlər" layihəsinin təqdimatını keçirib. Mərhum prezident Heydər Əliyevin xatirəsinə həsr edilən layihə məhdud sağlamlığı olan şəxslər və sosial sahədə çalışanlarlar üçün nəzərdə tutulub. www.eliller-ikt-tmt.com internet layihəsi əlillik problemləri, əlillərin sosial inkişafı, əlillik üzrə xidmət göstərən müəssisələr, şəxslər və təşkilatlar üçün ümumiləşdirilmiş informasiya bazası olacaq. Burada sağlamlığı məhdud şəxslər üçün zəruri elektron sosial xidmətlər üzrə sistem formalaşdırılacaq.**

"Elektron hökumət" portalı çərçivəsində düşünülən, ilk geniş ölçülü proyekt kimi dəyərləndirilir.

Layihənin rəhbəri Bəybala İbadullayev açıqlamasında bildirdi ki, Rabitə və İnformasiya Texnologiyalari Nazirliyi Heydər Əliyev Fondu ilə birlikdə Dilmanc" və www.e-eye.az "Elektron göz" layihələrini həyata keçirib: "Biz isə bütün kateqoriyalar üzrə sağlamlığı məhdud insanları informasiya almaq, ötürmək, paylaşmaq, özünü təqdim etmək, ehtiyacların ödənilməsi üzrə imkanlar araşdırmaq, "Elektron hökumət"in imkanlarından faydalanmaq məqsədi ilə elektron xidmətlər sistemini qurmağa qərar verdik. Hədəfimiz sağlamlıq imkanları məhdud olan problemli insanların virtual da olsa, yanında olmaqdır".

"Məsələn, ölkəmizdə ilk dəfə "daisy" kitabxana olacaq. Yəni, layihənin reallaşdırılması nəticəsində Azərbaycanda ilk dəfə səsli kitabxana fondu yaradılacaq. Azərbaycan dili və ədəbiyyatı üzrə surdo elektron lüğətin yaranması və surdo informasiyaların dövri olaraq yayınlanması təmin ediləcək. Sağ-




lamlığı məhdud şəxslərin peşə bacarıqları və qabiliyyətləri üzrə əmək bazarına inteqrasiya imkanı yaranacaq. İlk dəfə olaraq "Elektron hökumət" portalı çərçivəsində "Elektron sosial xidmətlər" sektoru formalaşacaq. Layihə dünyada da ilk olacaq bir yeniliyə imza atacaq. Belə ki, bütün sağlamlığı məhdud şəxslərə bir mərkəzdən informasiya xidmətləri həyata keçiriləcək."

İbadullayev onu da qeyd edib ki, layihənin ümumi nəticələrindən biri iş yerlərinin açılması, xüsusi ixtisaslar üzrə 22 nəfərin işlə təmin olunmasıdır.

Tədbirdə "Elektron hökumət" portalının nümayəndələri də iştirak ediblər. Tədbirdə çıxış edən "Əlil Təşkilatlar İttifaqı"nın sədri Davud Rəhimli belə bir təkliflə çıxış etmişdir ki, "Elektron hökumət" portalında "Sağlamlıq imkanları məhdud vətəndaşlar üçün"cümləsi BMT konvensiyası və Azərbaycan qanunvericiliyinə uyğun şəkildə dəyişdirilərək "Əlilliyi olan şəxslər" sözü ilə əvəz edilsin.

# Azərbaycanda dağınıq skleroz xəstələrinin elektron registri yaradılıb

**Azərbaycanda dağınıq skleroz xəstələrinin elektron registri yaradılıb. Səhiyyə Nazirliyinin 2013-cü ilin yekun hesabatlarına həsr olunmuş kollegiya iclasında bu barədə məlumat verən Tibbi yardımın təşkili şöbəsinin müdiri Gülmirzə Poladovun sözlərinə görə, ötən müddətdə onkoloji yardım göstərən tibb müəssisələrinin madditexniki bazası da yaxşılaşdırılıb.**

Milli Onkoloji Mərkəz ən müasir tibbi texnika ilə, o cümlədən mobil diaqnostik kompleksla də təchiz edilib. Ana və uşaqların sağlamlığının qorunması üzrə dövlət proqramının, həmçinin yenidoğulanların "Elektron sağlamlıq kartları" ilə təmin edilməsi, "Yoluxucu xəstəliklərin immunoprofilaktikası" proqramlarının ana və uşaqların sağlamlığının qorunması işində əhəmiyyətli rolu olub: "Vərəmlə mübarizə üzrə dövlət proqramı və Milli Strategiya çərçivəsində xəstəliyin yayılmasının qarşısının alınması məqsədilə bir sıra tədbirlər həyata keçirilib.

Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunda yaradılmış Milli Referens Laboratoriyası ilə yanaşı, mikrobioloji müayinələrin aparılması Gəncə və İmişlidə də təşkil edilib. Bu laboratoriyalar müasir diaqnostik cihaz və avadanlıqla təchiz olunub. Eyni zamanda hazırda 4278 adda dərman vasitəsi dövlət qeydiyyatına alınıb və dərman vasitələrinin dövlət reyestrinə daxil edilib. İl ərzində Səhiyyə Nazirliyinə 16 mindən artıq, o cümlədən elektron xidmət vasitəsilə 1566 müraciət daxil olub. "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli fəaliyyət planı"na əsasən, 2013-cü ildən həkimlərin işə mərkəzləşdirilmiş qaydada test imtahanı ilə qəbul edilməsinə



başlanılıb. Elektron vasitələrdən istifadə olunmaqla keçirilən bu imtahan həm həkimlərin işə qəbulunda şəffaflığı təmin etməyə, həm də onların peşəkarlıq səviyyəsini obyektiv qiymətləndirməyə imkan verir". Müasir informasiya texnologiyalarının səhiyyə sisteminə tətbiq edilməsi sahəsində də əhəmiyyətli işlər görülür.

Nazirlər Kabinetinin qərarı ilə Səhiyyə Nazirliyi üzrə təsdiq edilmiş siyahıdan 28 elektron xidmət hazırlanaraq nazirliyin rəsmi saytı vasitəsilə istifadəyə verilib. Eyni zamanda 27 elektron xidmət "Elektron hökumət" portalına qoşulub. Səhiyyə Nazirliyi tərəfindən aparılan elektron informasiya sistemlərində Fərdi İdentifikasiya Nömrəsi tətbiq edilib. Bundan əlavə stasionar tibb müəssisələrinin fəaliyyətinə elektron nəzarət sistemi, kadrların mərkəzləşdirilmiş qaydada işə qəbulu və digər proqramlar hazırlanaraq tətbiq edilib. Hazırda müxtəlif xəstəliklər üzrə 11 registr fəaliyyət göstərir.

www.e-gov.az

# Elmir Vəlizadə: "E-hökumət portalından istifadə edənlərin sayı 262 min nəfərə çatıb”




**"Hazırda"elektron-hökumət"portalından istifadə edənlərin sayı 262 min nəfərə çatıb . Əvvəl isə bu rəqəm 7 min idi”.**

Movqe.az-ın xəbərinə görə, bu sözləri "İnformasiya əldə etmək hüququ və açıq cəmyyət” mövzusunda keçirilən konfransda Rabitə və İnformasiya Texnologiyaları nazirinin müavini Elmir Vəlizadə söyləyib. E. Vəlizadə bildirib ki, rəqəmlərin müqayisəli təhlili göstərir ki, e-hökumət portalına daxil olmalar günü-gündən artır: "Artıq portaldan istifadə edənlərin portalda qaldıqları vaxt da artır. İndi portala daxil olanlar portaldan istifadə edərkən 5 dəqiqə vaxt sərf edir. Portaldan istifadə etmək üçün portala giriş şaxələri artıb. Bunlardan biri e-imzanın tətbiqidir. İndi mobil telefonlardan da e-hökumət portalına giriş mümkündür. Dövlət qurumları tərəfindən əldə edən e-imzaların sayı 13 min, vətəndaşlar tərəfindən isə əldə edilən e-imzaların sayı 6 minə çatıb. "Bakutel-2013” sərgisində bizim keçirdiyimiz aksiya nəticəsində 4 gündə 1048 nəfərə pulsuz e-imza verildi. "E-imza” ya sahib olanların sayı artdıqca e-hökumət portalına da giriş artır. Artıq e-imzaya sahib olanların say artımı göstərir ki, vətəndaşlar e-hökumət portalından istifadə etməyə maraq göstərirlər. Bu isə vətəndaşların xidmət almalarını asanlaşdırır.



# Səhiyyə Nazirliyi “Elektron Hökumət” portalı vasitəsilə daha iki elektron xidmətini təqdim edib

**Səhiyyə Nazirliyi “Elektron hökumət” portalı vasitəsilə iki elektron xidmətini istifadəçilərə təqdim edib.**

“Tibb işçilərinin ixtisas dərəcələrinin artırılması ilə əlaqədar müraciətin və sənədlərin qəbulu” adlanan xidmət vasitəsilə tibb işçilərinin ixtisas dərəcələrinin artırılması ilə əlaqədar müraciətin və sənədlərin qəbulu mümkündür.

Digər “Beş ildən çox işləməyən tibb mütəxəssislərinin hazırlığa göndərilməsi üçün müraciətin və sənədlərin qəbulu” adlı xidmət vasitəsilə isə beş ildən çox işləməyən tibb mütəxəssislərinin hazırlığa göndərilməsi üçün müraciətin və sənədlərin qəbulu mümkündür.

# Bakutel-2013 sərgisində “Elektron hökumət” portalının hesabatı

Bakutel



**Bildiyimiz kimi 2013-cü il Azərbaycanda prezident İlham Əliyev tərəfindən “İKT ili” elan edilib. Bununla bağlı il ərzində ölkədə keçirilən silsilə tədbirlər planı məhz Bakı Ekspo Mərkəzində 2013-cü ilin 2-5 dekabr tarixlərində telekommunikasiya və informasiya texnologiyaları sahəsində Xəzər və Qafqaz regionlarının ən böyük tədbiri olan "Bakutel-2013" sərgisi ilə tamamlandı.**

Ölkəmizdə elektron xidmətlərdən istifadənin artırılması məqsədilə və vətəndaşların e-xidmətlərə olan marağını nəzərə alaraq, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi tərəfindən "Bakutel-2013" sərgisində “Elektron Hökumət Portalı” pavilyonu sərgi iştirakçılarının istifadəsinə verilmişdi. Artıq bir neçə gün əvvəldən, əksər xəbər portallarında 2-5 dekabr tarixlərini əhatə edən "Bakutel-2013" sərgisində iştirakçılara ödənişsiz e-imza vəsiqəsi və kart oxuyucu təqdim edilməsi haqqında məlumat verilmişdi.

Aksiyadan yararlanmaq üçün sərgi iştirakçıları “Elektron hökumət portalı” pavilyonuna müraciət edərək , ilk növbədə şəxsiyyət vəsiqəsini təqdim etməklə sadələşdirilmiş kod-parol əldə etməli idilər. Vətəndaşların portalın əməkdaşlarına müraciət etməsi, e-imzanın alınması və kart oxuyucunun əldə edilməsi təxminən 10-15 dəqiqə vaxt tələb edirdi. Sərginin ilk günü 130, ikinci günü 301, üçüncü günü 329 və son günü 288 (cəmi 1048) nəfər sərgi iştirakçısı ödənişsiz e-imza aksiyasında iştirak etdilər. Ümumilikdə müraciət etmiş hər bir kəsə ödənişsiz e-imza, kart oxuyucu, “Elektron hökumət” portalına aid xüsusi qələmlər, müxtəlif tipli bloknot, yaddaş kartı, “Elektron hökumət” bülleteninin 12-ci sayı hədiyyə edildi. Çox qürurvericidir ki, sərgi zamanı insan axınının ən böyük cəmləşdiyi dayanacaqlardan biri məhz “Elektron hökumət portalı” pavilyonu olub.




www.e-gov.az

# Gömrük ödənişlərinin ödəyicisinin eyniləşdirmə nömrəsini elektron qaydada necə əldə etmək olar?

**Dövlət Gömrük Komitəsinin "Elektron hökumət" (www.e-gov.az) portalı vasitəsilə vətəndaşlara təqdim etdiyi e-xidmətlər sırasında "Gömrük ödənişlərinin ödəyicisinin eyniləşdirmə nömrəsinin alınması" xidməti yer alır.**

Məlumat Hesablama Mərkəzindən verilən məlumata görə, bu xidmət vasitəsilə qeydiyyatdan keçmiş hər bir istifadəçi öz FİN kodu əsasında fərdi məlumatları və Gömrük Ödənişlərinin Ödəyicisinin Eyniləşdirmə Nömrəsini (GÖÖEN) əldə edə bilər.

Bunun üçün DGK tərəfindən təqdim olunan e-xidmətlər siyahısından "Elektron hökumət" portalı vasitəsilə vətəndaşlara təqdim olunan e-xidmətlər arasında "Gömrük ödənişlərinin ödəyicisinin eyniləşdirmə nömrəsinin alınması" xidmətinin adını seçmək lazımdır: "Açılan formanın içində yalnız fiziki şəxs öz FİN kodu əsasında gömrük ödənişlərinin ödəyicisinin eyniləşdirmə nömrəsi və ona aid olan fərdi məlumatlar: soyadı, adı, ata adı, GÖÖEN-i, doğulduğu tarix, ünvanı, şəxsiyyət vəsiqəsinin nömrəsi və verilmə tarixi, qeydiyyat tarixi və s. əks olunacaq".

Əgər istifadəçi həmin məlumatları öz kompüterində yadda saxlamaq istəyirsə, "PDF" düyməsindən istifadə edə bilər.




İstifadəçi məlumatları "PDF" formatında yadda saxlaya və ya elektron poçt vasitəsilə e-mail şəklində istənilən ünvana göndərə bilər.

# Azərbaycanda "IMEI" kodların elektron imza vasitəsilə qeydiyyatına başlanılır



**Azərbaycan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi "IMEI (International Mobile Equipment Identification - Mobil cihazların qeydiyyat sistemi)" kodları yeni üsulla qeydiyyatının təşkili ilə bağlı işlər aparır.**

Hazırda nazirliyin müvafiq strukturları tərəfindən "IMEI" kodların elektron qeydiyyatının həyata keçirilməsi üzrə işlər aparılır. Bu üsulun yeniliyi ondan ibarət olacaq ki, artıq "IMEI" kodu qeydiyyatdan keçirmək üçün mütləq elektron imzanın istifadəsi tələb olunacaq. Hazırda biz bu istiqamətdə işlər aparırıq və yaxın zamanda sistem işə salınacaq.

Xatırladaq ki, "IMEI" kodların qeydiyyat sistemi 2013-cü il mayın 1-dən etibarən istifadəyə verilib.

Azərbaycanda təsdiq edilmiş qaydalara uyğun şəxsi istifadə məqsədi ilə ölkə ərazisinə gətirilərək istifadə olunan (ölkə mobil operatorlarının SİM kartları vasitəsilə) hər bir mobil cihazın "IMEI" nömrəsi həmin cihazın şəbəkədən xidmət almağa başladığı tarixdən ən geci 30 (otuz) gün müddətində qeydiyyata alınmalıdır.

# "Elektron hökumət" portalı MilliNet 2013-də birinci yerə çıxdı




**24 dekabr 2013-cü ildə "MilliNet 2013" Milli İnternet Mükafatının qaliblərinin təqdimat mərasimi keçirilib.**

12 nominasiya üzrə 319 sayt arasında 4 ay müddətində davam edən yarışmanın qaliblərinə "MilliNet" in əsas mükafatı təqdim olunub.

Dövlət və bələdiyyə saytları üzrə olan nominasiyada "www.e-gov.az" portalı birinci yerə çıxıb.

# “2020-ci ilədək əhaliyə təqdim olunan xidmətlərin bütünlükdə "Elektron Hökumət" vasitəsilə həyata keçirilməsi nəzərdə tutulub"

**"2020-ci ilədək dövlətin əhaliyə təqdim etdiyi xidmətlərin bütünlüklə "Elektron Hökumət” vasitəsilə həyata keçirilməsi, əhalinin elektron xidmətlərdən istifadə səviyyəsinin 80 faizə çatdırılması nəzərdə tululub.”**

Bunu YAP Siyasi Şurasının üzvü, rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə "Azərbaycan 2013-2018: Yeni hədəflərə doğru” mövzusunda keçirilən konfransda deyib.

O, bir çox məsələlərə toxunaraq həmçinin bildirib ki, bu gün Azərbaycanda İKT-nin inkişafı bir çox beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Dünya İqtisadi Forumunun hesabatına əsasən, Azərbaycan internetin inkişafına görə MDB və Mərkəzi Asiya ölkələri arasında 70 faizlik göstərici ilə birinci yerdədir.

Azərbaycanda İKT-dən əldə edilən gəlir təxminən 2 milyard dollardır və 2020-ci ilə qədər bu göstəricinin 8,5 milyard dollara çatacağı gözlənilir. Beləliklə, hədəf ümumi daxili məhsulun formalaşmasında İKT-nin payını 10 faizə çatdırmaqdır. Buna nail olmaq üçün orta illik artımın 15-18




faiz təşkil etməsi planlaşdırılıb. Ümumiyyətlə telekommunikasiya, internet və radio-televiziya yayım infrastrukturunun inkişafı əsas hədəflər sırasına daxildir.

Rabitə və informasiya texnologiyaları naziri qeyd etmişdir ki, 2020-ci ilədək İKT sahəsinə dövlət tərəfindən 3-3,3 milyard dollar, özəl sektor tərəfindən də təxminən eyni həcmdə sərmayə yatırılacağı gözlənilir.

# DSK vətəndaşlara 5 elektron xidmət təklif edir

**Hazırda Dövlət Statistika Komitəsi (DSK) vətəndaşlara özünün 5 elektron xidmətini təklif edir. Bu barədə “ICTnews.az” elektron xəbər xidmətinə DSK-dan məlumat verilib.**

Komitədən bildirilib ki, e-xidmətlər işin operativliyini bir qədər də artırıb: 5 istiqamət üzrə elektron xidmətlər göstərir.

Onlara “Rəsmi statistik hesabatların təqdim edilməsi”, “Statistik məlumatların buraxılış təqviminin və mətbu məlumatların yayım təqviminin təqdim edilməsi”, “Statistik məlumatların (göstəricilərin) verilməsi”, “Statistik nəşrlərin (kitabların) onlayn satışı”, “Statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə inzibati cərimələrin internet vasitəsilə ödənilməsi” daxildir”.

DSK qeyd edir ki, sözügedən elektron xidmətlər nəticəsində statistik vahid (hüquqi və ya fiziki şəxs) bütün rəsmi statistika hesabatlarını statistika orqanlarına gəlmədən elektron formada təqdim etmək imkanı qazanıb. Statistik məlumat istifadəçisi iqtisadiyyatın və sosial həyatın bütün sahələrinə dair hazırlanmış mətbu məlumatları, habelə onu maraqlandıran digər statistika məlumatlarını elektron formada əldə edə bilir.

Statistik məcmuəni (kitabı) komitəyə gəlmədən, dəyərini onlayn şəkildə ödəməklə almaq, statistik məlumatların verilməsi qaydalarını pozduğuna görə barəsində inzibati protokol tərtib olunmuş hüquqi və ya şəxs cəriməni banka getmədən, internet vasitəsilə onlayn rejimində ödəmək mümkündür.

hesab.az®




www.e-gov.az

## Statistik Məlumat

| ADI | 01.01.2013 tarixə | 01.01.2014 tarixə |
|---|---|---|
| Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş e-xidmətlərin sayı | 417 | 428 |
| Təsdiq olunmuş e-xidmətlərdən E-gov.az portalına inteqrasiya olunan e-xidmətlərin sayı | 109 | 217 |
| E-gov.az portalında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | 187 | 282<br>(2 ədəd "E-Hökumət" portalı üzrə e-xidmət əlavə olunub) |
| Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | 393 | 454 |
| Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olan e-xidmətlərin sayı | - | 367 |

## MSXM tərəfindən verilmiş e-imza sertifikatlarının sayı

| ADI | 01.01.2013 tarixə | 01.01.2014 tarixə |
|---|---|---|
| Dövlət Hakimiyyəti orqanlarına | - | 12343 |
| Hüquqi şəxslərə | 203 | 729 |
| Vətəndaşlara | 2125 | 4762 |
| CƏMİ | 2328 | 17834 |

| ADI | 01.02.2013 tarixə | 01.01.2014 tarixə |
|---|---|---|
| Sadələşdirilmiş kod parollar | 1742 | 25029 |

| ADI | 01.02.2013 tarixə | 01.01.2014 tarixə |
|---|---|---|
| Dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrlərinə daxil edilmiş informasiya sistemləri | 20 | 134 |

## Portala daxil olmalar və xidmətlərdən istifadə aktivliyi

| ADI | 01.02.2013 tarixə | 01.01.2014 tarixə |
|---|---|---|
| Portala müraciət edənlərin ümumi sayı | 6600 | 262566 |
| Portala daxilolmaların ümumi sayı | 8928 | 456712 |
| Elektron xidmətlərə edilmiş müraciətlərin sayı | 7957 | 736447 |
| Portala sərf olunan vaxt | 3d 5s | 5d 15s |
| Yeni istifadəçilər % | 79,7% | 46,7% |
| Təkrar istifadəçilər % | 20,3% | 53,3% |

www.e-gov.az

## 2013-cü ilin dekabr ayı ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Milli Arxiv İdarəsi | 1 | 2 |
| 2 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 1 | 5 |
| 3 | Energetika Nazirliyi | 1 | 1 |
| 4 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 2 |
| 5 | Xarici İşlər Nazirliyi | - | - |
| 6 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | - | - |
| 7 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 3 | 3 |
| 8 | Dövlət Gömrük Komitəsi | 4 | 295 |
| 9 | Dövlət Sosial Müdafiə Fondu | 13 | 11955 |
| 10 | Dövlət Statistika Komitəsi | 3 | 55 |
| 11 | Vergilər Nazirliyi | 9 | 1257 |
| 12 | Ədliyyə Nazirliyi | 7 | 1151 |
| 13 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 1 | 1 |
| 14 | Fövqəladə Hallar Nazirliyi | 3 | 99 |
| 15 | Müdafiə Sənayesi Nazirliyi | - | - |
| 16 | Səhiyyə Nazirliyi | 21 | 633 |
| 17 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 2 | 30 |
| 18 | Diasporla İş Üzrə Dövlət Komitəsi | - | - |
| 19 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 4 | 10 |
| 20 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 7 | 193 |
| 21 | Dövlət Dəniz Administrasiyasi | 1 | 1 |
| 22 | Təhsil Nazirliyi | 3 | 674 |
| 23 | Gənclər və İdman Nazirliyi | 1 | 2 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 6 | 1185 |
| 25 | İqtisadiyyat və Sənaye Nazirliyi | 2 | 3 |
| 26 | Kənd Təsərrüfatı Nazirliyi | - | - |
| 27 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 7 | 997 |
| 28 | Meliorasiya və su təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | - | - |
| 29 | Daxili İşlər Nazirliyi | 3 | 525 |
| 30 | Dövlət Sərhəd Xidməti | - | - |
| 31 | Müəllif Hüquqları Agentliyi | - | - |
| 32 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 1 | 111 |
| 33 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 3 | 187 |
| 34 | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | - | - |
| 35 | "AzərEnerji" ASC | 1 | 7 |
| 36 | "AzərSu" ASC | 1 | 276 |
| 37 | Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi | 4 | 72 |
| 38 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 32 | 68714 |
| 39 | Mərkəzi Seçki Komissiyası | - | - |
| | **CƏMİ** | **146** | **88446** |

## 01.12.2013 – 31.12.2013-cü il dövrü ərzində “Elektron hökumət” portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Telefon nömrəsi üzrə axtarış | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 62033 |
| 2 | Sığortaolunanın illər üzrə ödənişləri və pensiya kapitalı | Dövlət Sosial Müdafiə Fondu | 3468 |
| 3 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3246 |
| 4 | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 2420 |
| 5 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 1482 |
| 6 | Pensiyaçıya məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1223 |
| 7 | Azərbaycan adları barədə məlumatın verilməsi | Ədliyyə Nazirliyi | 753 |
| 8 | Vətəndaşın fərdi məlumatları barədə arayış | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 518 |
| 9 | Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar | Daxili İşlər Nazirliyi | 510 |
| 10 | Müavinətlər üzrə axtarış | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 414 |

## 01.12.2013-cü il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 37 | 97 | 134 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 31.12.2013 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 12343 | 729 | 4762 | 17834 |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmərlərin portala inteqrasiyası barədə

# MƏLUMAT

*13.01.2013*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 6 | 7 | 12 | 12 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 8 | 3 |
| 6 | İqtisadi İnkişaf Nazirliyi | 7 | 7 | 7 | 11 | 7 |
| 7 | Vergilər Nazirliyi | 57 | 4 | 9 | 45 | 45 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 8 | 6 | 6 | 7 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 6 | 9 | 12 | 12 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 12 | 12 | 16 | 18 | 12 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 17 | 17 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 5 |
| 13 | Təhsil Nazirliyi | 8 | 1 | 3 | 27 | 4 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 30 | 30 | 26 | 26 |
| 15 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 16 | 10 | 26 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 15 | 13 | 16 | 16 | 13 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 5 | 7 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 4 | 4 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 9 | 12 | 15 | 12 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 2 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 6 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 36-1 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| 41 | "Meliorasiya və su təsərrüfatı" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 42 | "Azərsu" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| 43 | "Azərenerji" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 44 | Mərkəzi Seçki Komissiyası | 0 | 0 | 6 | 9 | 0 |
| 45 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 1 | 1 | 4 | 3 |
| | **CƏMİ:** | **428** | **217** | **280** | **454** | **367** |

www.e-gov.az

## "Elektron hökumət" portalına daxil olanlar haqqında statistik məlumatlar




© 2013 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az